# DAĞLAR OĞLUNU XATIRLAYARKƏN

**"Xətai" təxəllüslü İlyas Xəlil oğlu İbrahimov. Bu ad, soyad və təxəllüs bütünlükdə bir şairin əsli, nəsli, şəxsiyyəti, xarakteri, təfəkkür tərzi, mənəvi dünyası haqqında müəyyən təsəvvür yaradır. Bu imzanın sahibi müxtəlif mövzularda yazılmış çoxçeşidli şeirlərin, poemaların, mənzum pyeslərin, o cümlədən vətən, torpaq, ədəbi-tarixi mövzuya həsr olunmuş "Yurdumun dastanı", "Müşfiqli düşüncələr" adlı bitkin poemaların müəllifidir. Vətəninə, torpağına, el-obasına, onun milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sıx bağlı olan ziyalı və pedaqoq İlyas Xətainin poeziyası gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan, xalqımızın övladlarına Azərbaycan dili, ədəbiyyatı, tarixi haqqında bilgilər verən ustadın qələm məhsullarıdır.**

İlyas Xətai hər şeydən əvvəl dağlar oğludur. O, Xızı-Bərmək mahalının bərəkətli torpaqlarından göyərərək rişələnmiş, saf çeşmələrinin gözündən su içmiş, ab-havasından pardaxlanıb qol-budaq atmış bəhərli bir ağac kimidir.

Uca Yaradan İlyas müəllimə fitri qabiliyyət, mənəvi keyfiyyətlər vermiş, ona humanizm, nəciblik, xeyirxahlıq, torpaqsevərlik, müəllimlik, oğul-uşaqlı gözəl ailə, mənalı ömür nəsib etmişdir.

Bütün bunlardan başqa, İlyas İbrahimova əcdadı Şah İsmayılın "Xətai" təxəllüsünü götürməyə sövq edən şairlik təbi, ilhamı da vermişdir. Xızının şeir-sənət xiridarları, söz sərrafları, şair və yazıçıları həmişə olub, yəqin bundan sonra da yetişəcəkdi. Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Seyfəddin Dağlı, Cabir Novruz, Rüfət Zəbioğlu, Ağasəfa kimi ədəbi sələflərinin poetik ruhunu bir xələf kimi daşıyan İlyas müəllim nəşr etdirdiyi kitabları ilə müasir varis adını qazanmağa layiq olduğunu sübut etmişdir.

İlyas Xətai 1937-ci il aprelin 27-də Siyəzən rayonunun Şıxlar kəndində anadan olmuşdur. Orta təhsilini Siyəzən şəhər M.Müşfiq adına 2 saylı məktəbdə almışdır (1958). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Pedaqoji Universitet) Azərbaycan dili, ədəbiyyat və tarix fakültəsini bitirmişdir (1967). Siyəzən rayonunun müxtəlif ümumtəhsil məktəblərində müəllim işləmişdir (1968-1999). Pedaqoji fəaliyyətlə yanaşı, poeziyaya xüsusi maraq göstərmişdir. Şeirləri ara-sıra mətbuatda dərc olunmuşdur. "Ana laylası" adlı ilk şeiri 1959-cu ildə "Siyəzən işçisi" adlı qəzetdə dərc olunmuşdur.

İlyas Xətai Azərbaycan ədəbiyyatına "Yurdumun dastanı", "Səni ürəyimdə gəzdirəcəyəm", "Qızılgül olmayaydı", "Fəsillərimsən mənim" kimi əsərlər bəxş etmişdir.

Şairin "Yurdumun dastanı" oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Bu poemanın mayası, təsvir məkanı təbiətdi, dağlar, meşələr, bulaqlar, çaylardı. İlyas müəllimi şəxsən tanıyanlar, onun poetik dünyasına bələd olanlar yaxşı bilirlər ki, şair-müəllimin şeirləri təbii və ürəyəyatandır. İlyas Xətainin poetik təfəkkürü güclü, təxəyyülü coşqundur. Əsərlərinin ideya və mahiyyətində xalqına, vətəninə böyük məhəbbətlə çırpınan ürəyinin döyüntülərini duymaq elə də çətin deyil:

*Yarıda qalmasın yazdığım dastan,*
*El-oba kam alsın yazdıqlarımdan.*
*El desin ürəyi dağlı idi o,*
*Yurduna qanıyla bağlı idi o.*
*Verdi yazısına ürək qanını,*
*Qəlbini, eşqini, həyəcanını.*

"Yurdumun dastanı" lirik-epik janrda yazılıb. Əsərdə sanki Xızı-Bərmək yurdunun ədəbi-bədii xəritəsi çəkilir. Müəllifin tərcümeyi-hal motivləri poemada xüsusi bir poetik xətt təşkil edir. Lakin İlyas Xətai avtobioqrafik məlumatları bədii ümumiləşdirmə səviyyəsinə qaldıra bilir: müharibə vaxtına düşən uşaqlıq dövrü, həyatın ağır məqamları, ilk şevgi duyğuları, qohum-qardaş itkisi, şəhidlik, adlı-sanlı həmyerlilər, ziyalılar, poetik düşüncələr və s. vahid bir kompozisiya təşkil edir. Poemanı məhz bu ideya-bədii keyfiyyətlərinə görə maraqla, birnəfəsə oxuyuruq.

"Yurdumun dastanı" bədii forma xüsusiyyətlərinə görə də çox rəngarəng olub oxucuya böyük estetik zövq verir. Müəllif mükəmməl şəkildə yiyələndiyi şeir texnikasından, müxtəlif hecalı beyt və misralardan, ölçülərdən (təqti), qafiyə sistemindən, qoşmadan, M.Şəhriyarın "Heydərbabaya salam"ının təsirindən yerli-yerində istifadə edir. Burada sanki poema içərisində yeni bir poema da meydana gəlir. Məsələn, "Torpağın harayı"nda hətta müstəqil şeir kimi qəbul edilən poetik parçalara da rast gəlmək olur.

Vaxtilə İlyas İbrahimov Siyəzəndə bu möhtəşəm poemasından hər bir hissəni ayrıca, sonradan isə əsəri bütövlükdə mənə oxumuşdu. İlyas Xətainin 80 illik yubileyi ərəfəsində kitablarını, həmçinin bu poemanı yenidən oxuyanda bir daha onun poetik istedadına valeh oldum.

İlyas Xətai "Qızılgül olmayaydı" şeirlər və pyeslər kitabında toplanmış poetik açıq məktubları müasirlərinə ünvanlamışdır. Azərbaycan ədəbiyyatında az işlənən bu formada müəllif öz arzularını ifadə etməklə yanaşı, vətən övladlarına torpağa layiq vətəndaş olmağı da tövsiyə edir, haqqın, ədalətin qorunmasının zəruriliyini önə çəkir. Müəllifin "Qızılgül olmayaydı" mənzum pyesi bir ailənin timsalında İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu yaralar, faciələr, mənəvi sarsıntılar və əzablardan bəhs edir. Qələmə alınmış səhnələr, təsvirlər canlı, təbii olduğu üçün insanı həyəcanlandırır, düşündürür. Əsərdə müəllif insanları sülhə səsləyir, dünyada gedən müharibələrə nifrətini bildirir. Bu pyesin və "Vicdan oyananda" mənzum-dramatik romanın məzmun və ideyası həyat həqiqətlərinə, milli-bəşəri dəyərlərə söykəndiyindən böyük əhəmiyyət kəsb edir.

İlyas Xətainin müxtəlif illərdə qələmə aldığı əsərlərinin lirik qəhrəmanları həyatın mənasını halallıqda, düzlükdə görür. Doğma torpağın gözəlliklərini əsl övlad məhəbbətilə tərənnüm edən şair həm də bu torpağa, millətə ögey münasibət bəsləyən harın məmurları ifşa edir, onları xalqına vicdanla xidmət etməyə səsləyir. "Müşfiqli düşüncələr" lirik poeması nakam şairimizin ömür-sənət yoluna işıq tutur və ona həsr olunmuş əsərlər içərisində öz orijinallığı ilə seçilir. Poema oxucuya



dastan-elegiya təsiri bağışlayır.

İlyas Xətainin "Fəsillərimsən mənim" şeirlər və poemalar kitabındakı əsərlərin ideyası, poetik məramı milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə çağırış ruhundadır. Ümumiyyətlə, şairin qələmə aldığı şeirləri öz rəngarəngliyi ilə yanaşı, bədii cəhətdən də dolğun olub, lirik-fəlsəfi çalarları özündə əks etdirən sənət əsərləridir. İlyas Xətainin poetik amalı vətəni azad, müstəqil görməkdir, xalqın firavan yaşaması və mənəvi yüksəlişidir.

İlyas Xətainin əsərləri haqqında tanınmış sənətkarlar və qələm sahibləri - xalq şairi Söhrab Tahir, xalq artisti Əliabbas Qədirov, habelə professor, Əməkdar elm xadimi Məhərrəm Qasımlı, şair və alim Əhməd Elburus, şair-publisist Mübariz Məsimoğlu, Nazim Əlioğlu və başqaları öz təəssüratlarında yüksək fikirlər söyləmişlər.

"Özün qoru", "Quraq bu həyatı, yenidən quraq", "Rədd ol torpağımdan", "Bayatılar", "Salam, Çıraqqalam mənim", "Ağlama, ana", "Şikayətnamə", "Xətai babama", "Qalib savaşadır nicatı xalqın", "İbrahimim", "Xızıda" və s. bu kimi neçə-neçə dəyərli mənzum əsərlərin müəllifi olan İlyas Xətainin xatirəsi doğmalarının, yaxınlarının, onu tanıyanların və oxucularının qəlbində həmişə yaşayacaq.

**Rasim NƏBİOĞLU.**